**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XX ƏSRDƏ (1920-50) AZƏRBAYCANDA FƏLSƏFƏ TARİXİ MƏSƏLƏLƏRİNİN İŞLƏNİLMƏSİ

İxtisas: 7210.01 - Fəlsəfə tarixi

Elm sahəsi: Fəlsəfə

İddiaçı: **Vüsalə Kərəm qızı Musayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi

almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2021**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Fəlsəfə tarixi və mədəniyyətşünaslıq" kafedrasında yerinə yetirilmişdir

**Elmi rəhbər:** Fəlsəfə elmləri doktoru, professor
**Rəbiyyət Nurullah qızı Aslanova**

**Rəsmi opponentlər:** Fəlsəfə elmləri doktoru, dosent
**Afaq Sultan qızı Məmmədova**

Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Əliyar Ağagül oğlu Orucov**

Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Rəşad Hüseynağa oğlu Əsgərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.33 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Fəlsəfə elmləri doktoru, professor
**İlham Ramiz oğlu Məmmədzadə**

Dissertasiya şurasının elmi katibi: Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Arif qızı Həsənova**

Elmi seminarın sədri: Fəlsəfə elmləri doktoru, professor
**Rafail Ayvaz oğlu Əhmədli**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Ümumdünya fəlsəfi fikir xəzinəsində özünəməxsus və layiqli yer tutan Azərbaycan fəlsəfə tarixi mürəkkəb və ziddiyyətli inkişaf yolu keçmişdir. Bu baxımdan XX əsr də əvvəlki tarixin davamı olaraq yaşadığı sosial-siyasi, iqtisadi, mənəvi, hərbi, milli problemlərin həllində fəlsəfədən kömək gözləyir, eyni zamanda onun daxili inkişaf proseslərini, xüsusiyyətlərini şərtləndirirdi. Ardıcıl olaraq sürəti müxtəlif, lakin əhəmiyyəti çox böyük olan sosial-siyasi və iqtisadi dəyişiklilər insanların dünyanı qavramaq xüsusiyyətlərinə, ona olan münasibətlərinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir.

Müasir müstəqil Azərbaycanda mənəvi həyat, onun bütün sahələri insan təfəkkürü, ictimai şüurun hər bir forması həmin dövrün abu-havasını, real elmi mənzərəsini mümkün qədər dəqiq müəyyənləşdirməyə çalışır, öz inkişaf imkanlarını artırır. Belə bir cəhətə də diqqət yetirilməlidir ki, XX əsrin 20-50-ci illərinə xas olan inkişaf xüsusiyyətlərini fəlsəfə tarixi məsələlərinin işlənilməsi müstəvisində bir də nəzərdən keçirmək, onları müasir ictimai və humanitar emlərin konseptual tələbləri baxımından sistemləşdirmək vəzifəsi kifayət qədər önəmli, əsaslı bir iş görülməsini tələb edir. İnsan şüurunda yeni, müasir dəyərləri və qiymətvermələri formalaşdırmaq üçün ona həmişə dünyanın əbədiliyi və insan həyatının ani, müvəqqəti olmasını xatırlatmaq, zənnimcə, gərgin fəaliyyətə çağırışdır. XX əsrin 20-50-ci illərində Azərbaycan fəlsəfəsinin inkişafı, zənginləşməsi məsələsinin təhlili həmin çağırışı reallaşdırmaq istiqamətində konkret fəaliyyət deməkdir.

XX əsrdə, o cümlədən 20-50-ci illərdə Azərbaycanda fəlsəfə tarixi məsələlərinin işlənilməsi məsələsi müxtəlif səpkidə tədqiqat obyekti olmuşdur. Bu problemin bəzi tərəfləri və aspektləri Azərbaycan ictimai fikir tarixində bir çox

tədqiqatçıların diqqətini cəlb etmişdir. Həmin tədqiqatlar əhəmiyyətli dərəcədə Sovetlər ölkəsində sosializmin qurulması və təkmilləşdirilməsi prosesi ilə sıx bağlı olduğu üçün biz həmin dövrün fəlsəfəsində məlum xüsusiyyətlərin təzahürləri aydın müşahidə olunur. Marksizmin tərkib hissəsi olmaq etibarilə dialektik və tarixi materializmlə daha çox peşəkar filosoflar, tarixçilər, sosioloqlar məşğul olmuşlar. Burada ilk növbədə aşağıdakı tədqiqatçıların – F. Köçərli, A. Aslanov, Z. Göyüşov, A. Abbasov, İ. Əsgərov, İ. Rüstəmov, Ə. Məmmədov, S. Xəlilov, L. Əliquliyeva, A. Makovelski, A. Məmmədova[1] və başqalarının adlarını çəkmək olar. Qeyd edilən tədqiqatçıların əsərlərində həmin dövrün fəlsəfəsinin inkişaf xüsusiyyətləri, filosofların dünyagörüşü, nəzəriyyənin praktika ilə bağlılığı, fəlsəfənin başlıca problemlərinin təhlili, özünüdərk problemi, həmin dövrün elm və mədəniyyətinin inkişaf xüsusiyyətləri, mədəni dəyərlər, iqtisadi təfəkkür məsələləri bə s. öz əksini tapmışdır. Həmin dövrün özünəməxsusluğu ilk növbədə fəlsəfə tarixinə, fəlsəfi özünüdərkə aid əsərlərdə öz əksini tapmışdır. Ona görə də həmin əsərlərin dəyərini real, obyektiv qiymətləndirmək çox vacibdir. Çünki 20-50-ci illərə aid tədqiqatları bilmədən, bumərhələnin xüsusiyyətlərini aydın təsəvvür etmədən sonrakı mərhələni tədqiq etmək yetərincə səmərəli olmaz. Azərbaycan filosofları C.Nağıyev, H.Hüseynov, Z.Göyüşov, Z.Quluzadə,

[1] Abbasov A. Üzeyir Hacıbəyovun sənətkarlığı. Bakı: Gənclik. 1976; Aslanov A. Estetika aləmində /estetik-tarixi nəzəri problemlər/. Bakı: Yazıçı, 1988; Əliquluyeva L. Məhəmməd Hadi yaradıcılığında Füzuli ənənələri. Bakı: 2007; Göyüşov. Z. Fəzilət və qəbahət. Bakı: Azərnəşr,1972; Xəlilov S. Cavid fəlsəfəsi. Bakı: Qanun nəşriyyatı, 1996; Köçərli F. Üzeyir Hacıbəyovun ictimai-siyasi görüşləri. Bakı: Azərb.SSR EA nəşri, 1965; Məmmədova A. XX əsrdə Azərbaycan romantizminin fəlsəfəsi (Məhəmməd Hadi irsinin tədqiqi əsasında). Bakı: 2002; Rüstəmov İ.Ə. XX əsrin əvvəllərində Azərbaycand təbii -elmi və fəlsəfi fikrin vəhdəti. Bakı, 1992; Маковельский А.О. Развитие философских наук в советском Азербайджане // Труды АГУ им. с. М. Кирова, т.VI, 1948

S.Rzaquluzadə, Z.Məmmədov, H.İmanov, S.Xəlilov, A.Abbasov[2] və başqaları Azərbaycan fəlsəfə tarixina dair araşdırmalar aparmışlar. Fəlsəfi ideyaların ədəbiyyatda, incəsənətdə, tarixdə inikasını Ş. Alışanlı, R.Aslanova, T.Abdullayeva, Z.Abıyeva, E.Bəşirova, R.Əlimirzəyəva, A.Hacıyeva, L.Hacıyeva, İ.Vahabzadə, M.Zeynalov, F.İsmayılov və başqaları əks etdirmişlər[3].

Nəhayət, mövcud elmi ədəbiyyatın bir qismi müasir tələblər baxımından XX əsrin əvvəllərindən, xüsusən 20-ci illərindən 50-ci illərə qədərki dövrün xüsusiyyətlərin təhlilinə həsr olunmuşdur; bu sırada R.Mehdiyevin, R.Aslanovanın, İ.Məmmədzadənin, A.Əsədovun, L.Mövsumovanın, A.Əlizadənin, R.Əzimovanın[4] əsərləri qeyd edilməlidir.

---

[2] Əlimirzəyeva R. N.Nərimanovun yaradıcılığında maarifçi ziyalı problemin tənqidi. Bakı: 2011; Göyüşov Z. Azərbaycan maarifçilərinin əsərlərində əxlaq məsəslələri (XIX əsrin sonu, XX əsrin əvvəlləri). Bakı: 1964; Hacıyeva A. Akademik Heydər Hüseynov. Bakı: 2015; Hüseynov H. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən. Bakı: Şərq-Qərb, 2007; Xəlilov S. Şərq və Qərb: ümumbəşəri ideala doğru. Bakı: 2004; Ахмедов Э. Философия азербайджанского просвещения. B.: Азернешр, 1983; Мамедзаде И.Р. О философии: современные подходы, тенденции и перспективы. Баку: «Текнур», 2011

[3] Aslanova R.N. Tarixə fəlsəfi baxış. Bakı: Avropa, 2021. – 574 s., Alışanlı Ş. Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı. Bakı: 2011; Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. Bakı: Elm, 2004; Eyvazova Ş. XX əsr Azərbaycan fəlsəfi və ədəbi-bədii fikrində inam və idrakın dialektikası. Bakı: 2004; Əliyev K. Azərbaycan romantizminin poetikası. Bakı: 2002; Əliyeva Z. Azərbaycan maarifçiliyi və dünya ədəbi-nəzəri fikri. Bakı: 2008; Hacıyeva A. Abdulla Şaiqin ədəbi-tənqidi görüşləri. Bakı: 2004; Hüseynova Ü. Əhməd bəy Ağaoğlunun ədəbi – tənqidi görüşləri. Bakı: 2007; Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. Bakı: Elm, 2002; Nağıyev R. Üzeyir Hacıbəyovun estetik görüşləri. Bakı: Azərnəşr, 1995

[4] Aslanova R. İslam mədəniyyəti və müasirlik. Bakı 2002; Aslanova R.N. Tarixdən günümüzə dövlət anlayışı. Ankara: 2021. – 462 s., Məmmədzadə İ. Bir daha fəlsəfə haqqında. Müasir yanaşmalar, təmayüllər. Perspektivlər. Bakı: 2012; Mehdiyev R. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. Bakı:

Nəzərdən keçirilən problemin ayrı-ayrı aspektləri qismən araşdırılsa da, XX əsrin 20-50-ci illərində Azərbaycan fəlsəfi fikrində fəlsəfə tarixi məsələlərinin işlənilməsixüsusi olaraq dissertasiya tədqiqatı səviyyəsində təhlil edilməmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi tarix və müasirlik baxımından fəlsəfi biliklər sistemində XX əsr Azərbaycan fəlsəfəsinin mühüm mərhələsi olan 20-50-ci illərdə onun ontoloji, qnoseoloji, sosial ideyalarının inkişaf meyllərinin və xüsusiyyətlərinin mahiyyətini üzə çıxarmaqdan ibarətdir. Bu məqsədə uyğun olaraq, dissertasiya işində aşağıdakı vəzifələrin həllinireallaşdırmağa səy göstərmişik:

- XX əsrin 20-50-ci illərində Azərbaycan fəlsəfəsinin əsas mərhələlərini və xüsusiyyətlərini açıqlamaq;
- həmin dövrdə Azərbaycan fəlsəfi fikrininhansı istiqamətlərdə və necə zənginləşməsi prosesinin mahiyyətli xarakteristikasını vermək;
- 20-50-ci illərdə Azərbaycan fəlsəfəsinin inkişafına təsir göstərən sosial-siyasi və mənəvi amilləri təhlil etmək;
- nəzərdən keçirilən dövrdə fəlsəfi fikrin inkişafına ideoloji qadağaların ləngidici təsirinin mümkün qədər obyektiv elmi mənzərəsini yaratmaq;
- həmin dövrün ayrı-ayrı görkəmli Azərbaycan filosoflarının yaradıcılığının başlıca məqamlarını təhlil etmək və müvafiq ümumiləşdirmələr aparmaq;
- məlum dövrdə Azərbaycanda fəlsəfənin və digər sosial-siyasi və hümanitar elmərin qarşılıqlı əlaqəsini araşdırmaq.

---

Azərnəşr, 2006; Mövsumova L. Azərbaycan qadını uzaq keçmişdən indiyədək. Bakı: 2003; Азимова Р. Человековедение – наука XXI века. Баку: 2011; Геюшев З.Б. Философская мысль в Советском Азербайджане. Краткий очерк. Баку: 1979; Кулизаде З. Закономерности развития восточной философии, и проблема «Запад-Восток». Баку: 1984

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Dissertasiya işinin nəzəri-metodoloji əsasını tədqiq olunan problemlə bağlı respublikamızda və xarici ölkələrdə görkəmli alim və mütəxəssislərin apardıqları araşdırmalar təşkil edir. Nəzəri-metodoloji baxımından ümummilli liderimiz Heydər Əliyevin və respublikamızın Prezidenti İlham Əliyevin zəngin mədəni irsimizə son dərəcə diqqətli və əsaslı elmi mövqelərdən yanaşılması barədə mülahizələri prinsipial əhəmiyyətə malikdir. Tədqiqatda qarşıya qoyulmuş məqsəd və vəzifələri nəzərə alaraq, məntiqi ümumiləşdirmə, abstraktdan konkretə (və əksinə) yüksəlmə, tarixi-müqayisəli və sistemli yanaşma, statistik təhlil və s. kimi metodlardan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Dissertasiyada müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

1.20-50-ci illərdə keçmişi qiymətləndirərkən, zəmanəmizin problemlərini təhlil edərkən siyasi ideologiya çərçivəsindən kənara çıxan hər hansı bir əsər rədd edildi və müəllif siyasi təqiblərə məruz qaldı.

2. Burada yürüdülən siyasətin əsas ideyası "mədəniyyətin ən yüksək formaları" nın xalqa məxsus olması və keçmişdəki elitar yanaşmaya son qoyulması idi.

3. Təbliğat silahlarından biri də totalitar rejimə uyğun olaraq insan şüuruna yaxın və uzaq tarixin idealları, normaları və biliklərinin aşılanması idi.

4. Bu proseslərə təkan da ümumi savadsızlıq və insanların inkişafının aşağı intellektual səviyyəsi idi.

5. Fəlsəfə sahəsində müəyyən bir "düşmən" axtarışı dərinləşdi və "menşevik idealizmi" termini altında hakim dairələrin hər hansı bir siyasi kursuna maneə olaraq ona qarşı ciddi bir mübarizə aparıldı.

6. Real tarixi həqiqətin təhrif edilməsi Azərbaycanda ictimai proseslərə və ictimai elmlərin formalaşmasına mənfi təsir göstərmişdir.

7. Marksizm-leninizm ideyalarının Azərbaycanda yayılmasında fəlsəfənin bütün sahələrində Azərbaycan marksistlərinin təsiri böyük olmuşdur. Azərbaycan demokratlarının da Azərbaycan xalqının milli kimliyi ideyası fəlsəfi fikirlərin inkişafında, milli və sosioloji problemlərin düzgün həllində əks olunur.

8. Ümumiyyətlə, həmin dövrdə baş verən iqtisadi, siyasi və mənəvi sahələrdə dəyişikliklər dünya kapitalizminin inkişafı ilə üst-üstə düşdü və sürəti əvvəlki və yeni məlumatların həcmi və effektivliyi ilə müəyyənləşdirildi

**Dissertasiyanın elmi yeniliyi.** Tədqiqat işinin elmi yenilik məqamları onun məqsəd və vəzifələrindən irəli gəlir və konkret olaraq aşağıdakılardan ibarətdir:

- Azərbaycan fəlsəfi fikir tarixində xüsusi mərhələni təşkil edən 20-50-ci illərdə fəlsəfə tarixi məsələlərinin işlənilməsinin real vəziyyəti ilk dəfə olaraq dissertasiya tədqiqatı səviyyəsində araşdırılmışdır;
- həmin dövrdə fəlsəfi fikrin inkişafına, o cümlədən fəlsəfə tarixi məsələlərinin təhlilinə təsir göstərən başlıca sosial-siyasi, iqtisadi və mənəvi-intellektual amillər müəyyənləşdirilmiş, konkret mənbələrə, faktlara istinad etməklə onların sistemli tədqiqi həyata keçirilmişdir;
- bir sıra müasir elmi və publisistik araşdırmalarda 20-50-ci illərdəki fəlsəfi tədqiqatlara münasibətdə özünü göstərən birtərəfli və bəsit yanaşmaların əsassızlığı sübut edilmiş, real problemlərin həqiqi mənzərəsini yaratmaq istiqamətində zəruri sənəd və materiallar diqqətlə nəzərdən keçirilmiş, müvafiq ümumiləşdirmələraparılmışdır;
- məlum dövrdə qərarlaşmış idarəetmə sistemi ilə şərtlənən ideoloji amil və onun elmi fikrə təsiredici imkanları təhlil edilmiş, bu əsasda onun neqativ nəticələri xüsusi olaraq nəzərdən keçirilmişdir;
- 20-50-ci illərdə fəlsəfənin mənəvi-intellektual mühitə təsiri, habelə sosial-siyasi və humanitar elmlər sistemində

önəmli yer tutması, həmin sistemin fəaliyyəti üçün müəyyən paradiqmalar işləyib hazırlamaq səyləri konkret faktlar əsasında təhlil edilmişdir;

- Sovet dönəmindəki konkret mərhələnin tədqiqi əsasında müəyyən təklif və tövsiyyələr işlənib hazırlanmışdır; zənnimizcə, bunlar təkcə 20-50-ci illər üçün yox, bütövlükdə 70 illik bir dövr üçün Azərbaycan fəlsəfə tarixi məsələlərinin araşdırılması baxımından əhəmiyyətlidir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Aparılmış tədqiqatın yekunu olaraq əldə edilmiş nəticələr Azərbaycanın fəlsəfi fikir tarixinin sonrakı dövrünün təhlili üçün müəyyən elmi əhəmiyyətə malikdir. Bu tədqiqat sovet Azərbaycanının ayrı-ayrı tarixi mərhələlərində fəlsəfənin inkişafının varislik əlaqəsini daha aydın izləməyə kömək edə bilər. Dissertasiya işindəki materiallardan "Fəlsəfə", "Fəlsəfə tarixi", "Azərbaycan fəlsəfə tarixi", "Ümumi sosiologiya" və s. fənlərin tədrisində, referatların, buraxılış işlərinin, magistr dissertasiyalarının, dərsliklərin, dərs vəsaitlərinin hazırlanmasında, sosial-mədəni layihələrin işlənilməsində və həyata keçirilməsində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın ümumi məzmunu, əsas müddəaları və başlıca yenilikləri məqalələr şəklində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) norma və tələblərinə uyğun yerli və xarici jurnallarda 8 məqalədə (onlardan üçü xaricdə) və 6 tezisdə (onlardan ikisi xaricdə) öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**: Dissertasiya işi Bakı Dövlət Universitetinin Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**: Giriş-10922, Birinci fəsil-52976, İkinci fəsil-134683, Üçüncü fəsil-60173, Nəticə-12647, İstifadə olunmuş ədəbiyyat

siyahısı-20764. Dissertasiyanın ümumi həcmi 156 səhifə, 293346 işarədən ibarətdir.

**Dissertasiyanın strukturu**. Dissertasiya işi giriş, üç fəsil (doqquz yarımfəsil), nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində tədqiq olunan mövzunun aktuallığı əsaslandırılmış, onun elmi cəhətdən işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsədi və vəzifələri göstərilmiş, metodikası və nəzəri əsasları müəyyənləşdirilmiş, tədqiqat zamanı müəllifin gəldiyi nəticələr, işin elmi yenilikləri, müdafiəyə çıxarılan əsas elmi müddəalar göstərilmiş, tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti açıqlanmış, dissertasiyanın strukturu əks etdirilmişdir.

Dissertasiyanın **birinci fəsli "Azərbaycanda sovet dövrünün fəlsəfə tarixşünaslığı**" adlanır və üç yarımfəsildən ibarətdir. "**Sovet dövründə Azərbaycanda fəlsəfə tarixşünaslığının əsas xüsusiyyətləri**" adlı birinci yarımfəsildə göstərilir ki, fəlsəfə tarixinin formalaşması prosesi ümumi sosial inkişaf və tarixi qanunauyğunluqlar çərçivəsində həyata keçirilir. Bu baxımdan "tarixi yaddaş" və bütövlükdə "tarixi şüur" anlayışlarına münasibət bildirilir. Fəlsəfə tarixinin inkişaf xüsusiyyətlərini, mərhələlərini araşdırmaq üçün, öyrənilən dövrün zəngin irsini tədqiq etmək, burada ümumi inkişaf meyllərini aşkara çıxarmaq üçün xüsusi bir metodologiyaya müraciət edilməsi zərurəti vurğulanır.

Bütün bu xüsusiyyətləri bilmədən ayrıca bir elm sahəsinin, o cümlədən fəlsəfə tarixinin elmi mənzərəsini yaratmaq olduqca çətindir.

XX əsr Azərbaycan fəlsəfəsinə (20 – 50 – ci illərdə) diqqət yetirdikdə məlum olur ki, digər bölgələrdə olduğu kimi, burada

da obyektiv şərait mənəvi mədəniyyətin, onun daxilində fəlsəfə elminin real vəziyyətinə və inkişafına öz təsirini göstərmişdir.

Fəlsəfi problemlərin təhlili çətinlikləri, artıq yuxarıda qeyd etdiyimiz kimi, həm də predmet sahəsinin qeyri-müəyyən olması ilə bağlıdır.

Metodoloji baxımdan bu vəziyyəti öyrənmək üçün öyrəndiyimiz dövrdə formalaşan elmi paradiqmaların strukturunu dərindən öyrənmək, bundan əlavə həmin paradiqmaların formalaşması yollarını təhlil etmək lazımdır.

Sovet ideologiyasının buxovu şəraitində inkişaf edən Azərbaycanda XX əsrin 20-50-ci illərində baş verən proseslər fonunda fəlsəfə elminin və dünyagörüşünün inkişafını birmənalı qiymətləndirmək olmaz.

20-ci illər bu cür sosial-siyasi və mənəvi abu-havada bir sıra görkəmli şəxsiyyətlərini, siyasi və elm xadimlərini, yazıçı və sənət ustalarını yetişdirmişdir. Dissertasiyanın bu bölməsində fəlsəfə tarixi sahəsində aparılan işlərin ümumi icmalı da verilmişdir.

Birinci fəslin ikinci altfəsil "**Sovet dövründə fəlsəfə tarixinə və fəlsəfəyə əsas baxış**" adlanır.

Tədqiq edilən dövr xüsusi siyasi rejimlə səciyyələnirdi. Bu rejimin əsasında duran ideologiya isə "marksizm-leninizm" adı ilə tanınır. Siyasi şüurda "xalq düşməni" obrazı yaradılaraq, düşmənə qarşı müəyyən hisslər aşılanır, insanlar mübariz, mətin olmağa çağırılırdı. Mənəvi həyatın özü də göstərilən ideoloji və siyasi inkişaf istiqamətləri çərçivəsində fəaliyyət göstərirdi.

Siyasi şüurun formalaşması prosesinin sürəti ölkənin yaşadığı çətinliklər hesabına da artmışdı. Ölkə qarşısında duran daha bir sınaq idarəetmə strukturları üçün kadr çatışmazlığı idi. Qısa bir müddətdə savadlandırma, müxtəlif həyat fəaliyyəti sahələri üçün kadr hazırlığı prosesi həyata keçirilməli idi.

Həmin dövrdə yaşanan bu problem digər bir problemi gündəmə gətirmişdir: köhnə mədəniyyətdən nəyi saxlamaq və

nədən imtina etmək lazım gələcək? Bir çox xalqların və millətlərin yaşadığı nəhəng məkan olan SSRİ-nin rəhbərliyi üçün vacib, baş ağrıdan məsələlərdən biri məhz milli mədəniyyətlərin inkişaf etdirilməsi idi. Xalqın görkəmli ziyalıları qarşısında köhnə mədəni irsi qoruyub saxlamaq, gələcəkdə ondan faydalanmaq və onu inkişaf etdirmək vəzifəsi dururdu. Bütün milli mədəniyyətlər vahid sosialist (məzmunca sosialist, formaca milli) mədəniyyətə qovuşaraq, inkişaf etməlidir[5].

Siyasi rəhbərlik burjua mədəni tənəzzülünün həm də müəyyən mənada sovet elm və mədəniyyətinə təsir etdiyini vurğulayırdı. Stalin sistemi həm də fəlsəfə və tarix sahələrində guya baş verən "təhriflərə" qarşı yönəldilmişdi. Burada əsas məsələ "kommunizmin səlisliyinə" nail olmaq idi[6].

Bütün tədqiqatların metodoloji fundamenti dialektik materializm olmuşdur. Belə mühitdə fəlsəfi irsə, fəlsəfi ideyalara münasibət də tam obyektiv ola bilməzdi. Bununla belə milli-tarixi təfəkkürün formalaşması və inkişafı işinə Azərbaycan tarixinin öyrənilməsi prosesi də müsbət təsir göstərmişdir. Ali məktəblərdə yeni ixtisaslar üzrə mütəxəssis kadrları hazırlanırdı.

Müharibə peşəkar filosofların tədqiqat istiqamətlərini və dairəsini xeyli dəyişdirdi. Daha çox cəmiyyət, siyasət, insan şüuru, ideologiya sahələrinə aid problemlər tədqiq olunmağa başandı[7]. İdeoloji şuarların, çağırışların əsasında vahid marksizm və leninizm adlanan bütöv bir təlim dururdu.

Peşəkar filosoflarla yanaşı həm də yazıçı və şairlər, publisistika sahəsində öz gücünü sınayan incəsənət nümayəndələri də qeyd edilməlidir. Ü.Hacıbəyovun milli

---

[5] Сталин И. Марксизм и национальный вопрос. М.: 1937, с. 194-195

[6] Сталин и социалистическая культура. М.: 1939, s. 34

[7] SSRİ EA Azərbaycan filialının Xəbərləri. 1941, №7, 81 s.

maarifçilik işinə, mənəvi mədəniyyətin, milli özünüdərkin və fəlsəfənin inkişafına misilsiz xidməti təhlil edilmişdir.

Bir sıra zəruri məsələlərin ümumi şəkildə araşdırılması belə deməyə əsas verir ki, Sovet Azərbaycanının müəyən dövrünü əhatə edən bu mərhələdə, yəni 20-50-ci illərdə mənəvi həyatda baş verən proseslər özündə həm dünya sivilizasiyanın, həm də Azərbaycanın yerləşdiyi bölgədə cərəyan edən dəyişikliklərin və transformasiyaların təsirini əks etdirir.

Dissertasiyanın ikinci fəsli **"20-30-cu illərdə Azərbaycanda fəlsəfənin inkişaf xüsusiyyətləri" adlanır. Bu fəslin birinci, "XX əsrin əvvəllərində fəlsəfə tarixində insan probleminə dönüş"** adlanan alt fəslində göstərilir ki, XIX əsrin sonu - XX əsrin əvvəlləri böyük elmi kəşflər və bir çox yeni elm sahələrinin yaradılması ilə səciyyələnir. Fəlsəfədə də yeniliklər baş verirdi. Hələ İntibah dövründən başlayan antroposentrizm meylləri güclənib özünü bir sıra yeni cərəyanların formalaşmasında ifadə etməyə başladı. Bu cərəyanların oxşar və fərqli cəhətləri var. Ümumi cəhət isə insan problematikasının ön plana çəkilməsidir[8]. Bu halda insan, onun təfəkkürü, psixologiyası, sosial münasibətlər sistemi, dünyaya münasibəti, tarixdə rolu təhlil olunur. Elmdə formalaşan dünyanın yeni mənzərəsi fəlsəfi fikrinə də təsir göstərmişdir.

Bu cür proseslər sovet elmi tərəfindən birmənalı qarşılanmamışdır. Qərb fəlsəfəsi "mürtəce" burjua fəlsəfəsi kimi yalnız tənqidi şəkildə təhlil olunurdu. Bununla belə elmi-texniki inqilabın sürətli addımları bəzi mövqelərdə bu yanaşmanı müəyyən mənada laxladır, yeni yanaşmaları formalaşdırırdı.

Şübhəsiz, ictimai həyatda baş verən proseslər ilk növbədə dünyanın vəhdətini, bütövləşməsini ifadə edirdi. Qarışılıqlı

---

[8] Современная буржуазная философия. М.: Высшая школа, 1978

asılılıq artır, eyni zamanda hər bir xalqın, etnik qrupun özünütəsdiqləmə, müstəqil özünüdərk imkanları genişlənirdi; belə şəraitdə iki istiqamətdə inkişaf gedirdi: ümumi dəyərlərin formalaşması və qavranılması; milli özünüdərkingüclənməsi. Hər iki istiqamətdə gedən proseslərə siyasi və iqtisadi durum, şübhəsiz ki, öz təsirini göstərirdi.

Sovet İttifaqı və onun tərkib hissəsi olan Azərbaycan Respublikası alimləri, rəsmiləri tərəfindən Qərb fəlsəfəsi tənqidi şəkildə qavranılır, təhlil olunur və izah edilirdi. Əslində qiymətləndirmə və təhlil siyasi ritorika səviyyəsində aparılırdı.

Tənqidlə yanaşı həmin cərəyanların nümayəndələrinin yaradıcılığında "sağlam düşüncə" rüşeymlərinin olmasını, mümkünlüyünü qəbul edən alimlər də var idi. Bütövlükdə dünya elmi ictimaiyyəti tərəfindən qəbul olunub öyrənilən, tətbiq edilən ideyalar sovetlər şəraitində əsasən inkar olunurdu, amma sağlam düşüncə imkan vermirdi ki, bütövlükdə həmin ideyalar sadəcə idealizm və yaxud hər hansı bir mənfi xarakteristika ilə təqdim olunsun.

Qərb ölkələrində də bu məsələyə biganə qalmırdılar. Kommunizm və sosializm quruluşuna, həyat tərzinə, bu rejimə sadiq olan ölkələrdə baş verən proseslərə öz münasibətlərini bildirirdilər.

Sovet tədqiqatçıları Qərb fəlsəfəsini öyrənib təhlil edərkən ilk növbədə marksizm ideyalarına zidd olanı aşkar edir və onu tənqid edirdilər.

Sovet nəzəriyyəçilərinin fikrincə, ictimai elmlər müstəqil və obyektiv ola bilməz, burada mütləq sinfi mənsubluq, konkret – tarixi şərait özünü büruzə verməlidir[9]. Sovet tədqiqatçıları yaxşı başa düşürdülər ki, Qərb ölkələrində ideoloji buxov bir o qədər əhəmiyyətli deyildir, burada ümumi

[9] Критика современной буржуазной теоретической социологии. М.: Наука, 1977

inkişaf xüsusiyyətləri (o cümlədən kapitalizmin sənayə mərhələsinin postsənayə mərhələsi ilə tədricən əvəzlənməsi prosesi) insan təfəkkürünə, burada özünüdərkin yeni müstəviyə ucalmasına şərait yaradırdı.

İkinci fəslin ikinci altfəslin adı **"20-30-cu illərdə Azərbaycan fəlsəfəsinin formalaşmasında sosial-siyasi və mənəvi amillər"**dir. Tədqiq edilən dövrün sosial-siyasi hadisələri sırasında siyasi qanunların struktur baxımından dəyişilməsi, yerli səviyyədə idaəetmə orqanlarının yaradılması ilə müşaiyyət olunurdu. İctimai şüurda tarixi yaddaşın, fəlsəfi özünüdərkin, ictimai rəy və stereotiplərin xüsusi istiqamətdə formalaşdırılması nəticəsində insanlarda vətənə sədaqət, siyasi liderlərə inam, ictimai fəaliyyət sahələrində, o cümlədən əmək və istehsalda fədakarlıq müşahidə olunurdu.

Partiya elitası çox yaxşı başa düşürdü ki, xalqı əlində saxlamaq üçün "düşmən" obrazını yaratmaq lazımdır. Daim həm "daxili" (istismarçı siniflərin qalıqları), həm də "xarici" düşmən axtarışı (kapitalist ölkələrin irticaçı-faşist qüvvələri) aparılır, insanların diqqəti əsas, həyati əhəmiyyətli məsələlərdən yayındırılırdı.

Bütün əvvəlki dövrlərdə əldə edilən zəngin mənəvi irs, o cümlədən fəlsəfə üçün zəmin rolunu oynaya biləcək ədəbiyyat, incəsənət, dini-mədəni ideyalar sahələrində toplanan biliklər və dəyərlər puç olur, qəsdən və yaxud laqeyidlik üzündən itirilir, dağıdılır və məhv edilirdi. Keçid dövrünün, müharibə illərinin bütün çətinliklərinə baxmayaraq xalq, sadə insanlar qarşısında qoyulan vəzifələrin, o cümlədən iqtisadi vəzifələrin öhdəsindən layiqincə gəlmək sayəsində Sovet İttifaqı dünyanın aparıcı ölkələrin birinə çevrilmişdi.

XX əsrin 20-30-cu illərində fəlsəfi fikrin inkişafının mühüm istiqamətlərindən biri də XIX əsrdən yaşanan maarifçilik ideologiyası və praktikası, onun nəzəri ümumiləşdirilməsi olmuşdur.

XX əsrin 20-50-ci illərdə Azərbaycanın mənəvi həyatında baş verən proseslər sırasında bir sıra yeniliklər, o cümlədən incəsənətdə yeni janrların yaranması, həmin janrların xalq yaradıcılığından qaynaqlanması, bununla da ictimai şüurda yeni çalarların və ifadə tərzlərinin formalaşması müşahidə olunur. Bunu incəsənətin bütün sahələrində, o cümlədən musiqidə, təsviri və tətbiqi sənət nümunələrində, memarlıqda, heykəltəraşlıqda, ədəbiyyatda görmək olar.

Bədii təfəkkürün yeni istiqaməti – sosialist realizmi formalaşmışdı. Bununla yanaşı, milli özünəməxsusluğun da gözlənilməsi məcburiyyəti üzündən xalqımızın görkəmli sənətkarlarına, dünya şöhrətli yaradıcılarına da diqqət yetirilirdi. Məsələn, 30-cu illərdə Nizami Gəncəvi muzeyi yaradılmışdı.

Tədqiq etdiyimiz dövrdə fəlsəfi fikrin inkişaf xüsusiyyətlərindən biri də mənəvi həyatın fəlsəfi əsaslarının sürətlə dəyişilməsi idi. Yeni siyasi quruluşun tələblərindən biri "burjua" incəsənətinə, elminə, əxlaqına, habelə dinə qarşı mübarizə aparılması idi.

Azərbaycanın mənəvi həyatın inkişafına iki amil güclü təsir edirdi: birincisi, öz təsirini mühafizə edib saxlayan Qərbi Avropa, islam və türk dünyaları dəyərlərinin təsiri, ikincisi isə Sovetlər ölkəsi xalqlarının formalaşan mənəvi-ideoloji həyat birliyinin təsiridir.

Milli özünüdərkin inkişafı məhz bu istiqamətlərdə daha aydın reallaşmışdır. Ədəbiyyat və incəsənət nümayəndələrinin yaradıcılığında həmin dövrdə cəmiyyətin fəlsəfi özünüdərkinin inkişafının qanunauyğun olduğunu göstərmək olar.

Nəzərdən keçirdiyimiz xeyli sayda qabiliyyətli, bacarıqlı istedadların meydana çıxması həmin dövrdə yaşayan insanların dünyagörüşündə, təfəkküründə olan böyük potensialdan xəbər verir. Keçmişin və indinin özünəməxsus çulğalaşması burada ilk növbədə Şərq və Qərb düşüncə tərzlərinin təzahürləri kimi özünü büruzə verirdi. XX əsrin 20-30-cu illərində keçid

dövrünü yaşayan cəmiyyətdə insan şüurunda sistemsizlik, qeyri-sabitlik, parçalanma müşahidə olunurdu. Bu da insanların dünyaya, özünə olan münasibətində aydın hiss olunurdu.

Ənənəvi xarakter daşıyan Azərbaycan cəmiyyəti yeni inkişaf mərhələsinə qədəm qoyarkən mənəvi həyatda elə simalar formalaşıb ki, onlar dövrlə şərtlənən ağır yükün öhdəsindən layiqincə gələ biliblər. Cəmiyyətin intellektual elitasının gələcək inkişaf və əldə ediləcək nəticələrbaxımından məsuliyyəti olduqca yüksəkdir.

İkinci fəslin üçüncü **"Fəlsəfənin inkişafında mənəvi mədəniyyətinin rolu"** adlanan altfəsildə göstərilir ki, keçən əsrin 20-50-ci illərində Azərbaycanda mənəvi həyatın dolğunluğunu, mütərəqqi inkişafını, milli özünüdərkin formalaşmasını təmin edən qüvvələr sırasında həm də mədəni sahədə cərəyan edən hadisələr nəzərdən keçirilməlidir. Bir neçə şəxsiyyət var ki, onların simasında ölkənin mədəni-mənəvi elita təbəqəsi formalaşaraq ictimai şüura, həyat tərzinə, insanların dünyagörüşünə əsaslı şəkildə təsir göstərmişdir.

İlk növbədə mənəvi mədəniyyətin musiqi, fəlsəfə, maarifçilik, sosial-siyasi sahələrində əsaslı şəkildə təsir göstərmiş dahi Ü.Hacıbəylinin (Hacıbəyov) yaradıcılığına müraciət edək. Tədqiq edilən dövrün estetik şüurunun inkişafında musiqi mədəniyyətinin rolu çox böyük olmuşdur. Məlumdur ki, musiqi insana emosional təsiri ilə yanaşı həm də fəal intellektual təsir də bağışlayır. Bu mənada Azərbaycan musiqisinin korifeyləri Ü.Hacıbəyov, Q.Qarayev, F.Əmirov, C.Cahangirov və digər sənətkarların yaradıcılığı olduqca dəyərlidir.

Həmin dövrün nə qədər ağır, keçid xarakterli olduğunu, burada müxtəlif mövqelərin, dünyagörüşlərin toqquşmasını, yeni ideologiyaların kəskin mübarizəsi şəraitində yaranmasını nəzərə alsaq, Ü.Hacıbəyovun vətəndaşlıq mövqeyinin nə qədər cəsarətli olduğunu başa düşmək çətin olmaz.

Tədqiq olunan dövrdə daha bir görkəmli sənətkarın M. Maqomayevin yaradıcılığını qeyd etmək lazımdır. Musiqi sahəsində fəaliyyət göstərən, bununla da xalqın mənəvi mədəniyyət xəzinəsinə dəyərli töhfə verən, fəlsəfi təfəkkürün formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərən simalar sırasında daha bir neçə digər sənətkarın da adı çəkilməlidir. Bunlar Bülbül, Niyazi, Q.Qarayev, F.Əmirov, R.Behbudov olmuşlar.

Dünyanın qavranılmasının ən geniş imkanlarına malik olan musiqi sənətinin inkişafında böyük addımlar atan Azərbaycan sənətkarları, demək olar ki, bu sahənin böyük zirvələrini fəth etmişlər. Tədqiq edilən dövrdə yalnız teatr səhnəsində tamaşaçıların zövqünü formalaşdıran, onların bədii təfəkkürünü genişləndirən, təxəyyül və dəyərlər sistemini formalaşdıran böyük sənətkarlar qrupunu qeyd etmək olar; bunların sırasında H.Sarabski, M.A.Əliyev, R.Kazımov, R.Darablı, S.Ruhulla, Süxeyli, H.Şərifov, Ə.Əzimzadə, sonradan formalaşıb püxtələşmiş İ.Hidayətzadə, K.Kazım-Ziya, M.Mərdanov, A.Gəraubəyli, R.Təhmasib və R.Əfqanlı kimi görkəmli şəxsiyyətlərin adlarını çəkmək olar.

Bu istiqamətdə aparılan işlərdən biri də teatr tamaşaları üçün yazılan musiqinin inkişafında böyük irəliləyişin olması idi. Burada ilk növbədə Ə.Bədəlbəyli, A.Zeynallı, Ü.Hacıbəyov və S.Rüstəmovun adları qeyd olunmalıdır. Məs., Ə.Bədəlbəylinin böyük xidmətlərindən biri milli folklordan, xalq vokal və instrumental musiqisindən faydalanması idi. Muğam improvizasiyalarından da geniş istifadə olunurdu.

Bu sahədə cərəyan edən prosesləri təhlil edərkən digər sosial sahələrin də kompleksli şəkildə qarşılıqlı təsiri nəzərə alınmalıdır. Sistemli yanaşma elm, təhsil və digər sahələrdə də cərəyan edən proseslərin təhlilini tələb edir.

İkinci fəslin son altfəsli **"20-30-cu illərdə fəlsəfə elmi ideoloji amil kimi. Qırmızı professura"** adlanır. Burada göstərilir ki, iqtisadi, sosial sahələrdə əldə edilən nailiyyətlərlə

bağlı təbliğat istiqaməti "burjua" azadlıqları, bütövlükdə kapitalist ölkələrində aparılan siyasətə qarşı çevrilmişdi: söhbət ilk növbədə həmin cəmiyyətdə xalqın istismarından gedirdi. Burada istismara son qoyulması və inkişafın təmin edilməsini, sosial həyatda qarşılıqlı yardım və həmrəylik, SSRİ xalqlarının formaca milli, məzmucaisə sosialist olan milli mədəniyyətlərin çiçəklənməsi əsas götürülmüş, nəticədə vahid sosialist dövlətin tərəqqisi bəyan edilmişdir. Hesab olunurdu ki, burada antaqonist ziddiyyətlər tam aradan qaldırılmışdır.

İdeoloji buxovların mövcudluğu şəraitində marksizm-leninizm ideyaları burada da öz təsirini göstərirdi. Tədqiqat dairəsi olduqca geniş olan bu elm sahəsində həmin dövr üçün aktual olan məsələlər öyrənilir, onlara münasibət bildirilirdi. Tədrislə bağlı tövsiyələr vahid ideologiyanın tələblərinə cavab verməli idi. Tarix sahəsində əsas ideyalar xüsusi mülkiyyətin ləğv edilməsi, torpağın milliləşdirilməsi, müstəqil və ya muxtar respublikaların yaradılması, şuraların fəaliyyətinə əsaslanan yeni dövlət maşınının formalaşması olmuşdu. Sosialist ideyalara cavab verə bilməyən hər hansı bir müddəa rədd edilirdi. Marksizm klassiklərinin əsərlərinin öyrənilməsinə xüsusi əhəmiyyət verilirdi.

Aydındır ki, partiya tarixində bəzi şəxsiyyətlər haqqında heç də obyektiv olmayan məlumat verilir, hadisələr bəzən təhrif olunurdu.

Stalin başa düşürdü ki, hər hansı bir təşkilatı, qrupu, ölkəni vahid ideya, amal birləşdirməlidir. Həmin "ideya" əleyhdarları, ola bilsin ki, "oxşar" silahla silahlanıb, üstəlik, yaxşı savad və bacarıqlara malikdirlər. Beləliklə, yalnız lənətləməklə və yaxud ifşa etməklə belə "düşmənləri" aradan qaldırmaq mümkün olmayacaqdır. Bunun üçün ciddi fəlsəfi, ideoloji hazırlıq lazımdır.

Stalinin taktikasında "damğa" vurmaq əsas yer tuturdu: "menşevik idealizmi", "solçuluq", "sağçılıq", "sağ-trotskist müxalifət" və s. Demək olar ki, 20-30-cu illərdə yaşayıb-

yaradan və siyasi konyukturanı vaxtında duymayan "marksist-filosofların" hamısı güllələndi. Onlara tutulan əsas irad ondan ibarət idi ki, həmin yalançı marksistlərin ideyaları və fəaliyyəti ölkəni sosializmə yox, kapitalizmə doğru sürükləyəcəkdir.

Tarixin real həqiqətlərinin təhrif olunması Azərbaycanın da sosial proseslərə, ictimai elmlərin formalaşmasına mənfi təsir etmişdir.

Demək olar ki, Stalinlə bağlı formalaşmış şəxsiyyətə pərəstiş ictimai həyatın bütün sahələrinə nüfuz etmiş, bir sıra elmləri tamamilə aradan qaldırmış (genetika, sosiologiya, psixiatriya, psixoanaliz), digərlərin məzmununa və inkişaf istiqamətinə kəskin şəkildə mənfi təsir göstərmişdir.

Siyasi sifariş əsasında inkişaf edən ictimai elmlər, o cümlədən fəlsəfə dar marksist çərçivədən çıxa bilmirdilər.

XX əsrin 20-30-cu illərində Azərbaycan fəlsəfə tarixində öz yaradıcılığı ilə parlaq iz qoyub gedən tədqiqatçılar da olmuşdur. Bunların sırasında ilk növbədə ömrü çox qısa, lakin kifayət qədər maraqlı olmuş Cahangir Nağıyevin adını çəkmək lazımdır.

Azərbaycanda fəlsəfənin peşəkar səviyyədə inkişafında daha bir görkəmli tədqiqatçı-mütəfəkkirin adını çəkmək lazımdır. Söhbət 1945-1950-ci illərdə Azərbaycan SSR EA Fəlsəfə və Hüquq İnstitutunun direktoru olmuş və ömrünün çox hissəsini Azərbaycan elminə həsr etmiş Aleksandr Osipoviç Makovelskidən gedir. Onun elmi maraq dairəsi qədim, klassik yunan fəlsəfəsi ilə yanaşı həm də məntiq, psixologiya, pedoqogika olmuşdur. O, müxtəlif tarixi dövrlərdə idealizm və materializm arasında gedən mübarizəyə öz münasibətini bildirmiş həmin mövqedən dialektik və tarixi materializm problemlərinitəhlil etmişdir.

XX əsrin 20-30-cu illərdə Azərbaycan fəlsəfəsinin inkişaf xüsusiyyətləri sosial-siyasi rejimin tələblərinə, eyni zamanda həmin dövrün ümumdünya sivilizasiyasının inkişaf istiqamətlərinə uyğun qərarlaşırdı.

Axundov Ruhulla Əli oğlu (1897-1938) özünü bacarıqlı təbliğatçı kimi göstərmişdir. R.Axundov marksizm təliminə aid bir sıra əsərləri, o cümlədən Marksın, Engelsin, Leninin, əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. Həmçinin R.Axundov bir çox siyasi terminləri Azərbaycan dilinin tələblərinə uyğunlaşdırmağa çalışmışdır. Marksizm mövqeyindən sosial həyatı qiymətləndirib onun ideyalarını reallaşdırmağa çalışanlardan biri də Səmədağa Ağamalıoğlu (1867-1930) olmuşdur.

20-30-cu illərdə ictimai fikrin formalaşmasında və inkişafında marksizmin ideyalarının rolu böyük olmuşdur. Buna baxmayaraq, müəyyən maneələrlə üzləşsə də, fəlsəfi fikir, ictimai şüurun bir çox formaları, o cümlədən etik, estetik şüur da inkişaf edirdi. Bunu bir çox qabiliyyətli təmsilçilərin fəaliyyətində aydın görmək olar.

Görkəmli ictimai xadim, yazıçı, rəssam, filosof Əli bəy Hüseynzadə XX əsrin birinci yarısında bölgədə cərəyan edən hadisələr burulğanında, Azərbaycan milli-mənəvi mədəniyyətində və bütövlükdə tarixində özünəməxsus, parlaq, dərin iz qoymuşdur. O, XX əsrin 20-40-cı illərində ictimai-siyasi, mədəni-maarif və mənəvi-fəlsəfi sahələrində fəaliyyət göstərən ən parlaq simalarından biri olmuşdur.

Təhsildə aparılan islahatlar sosial həyatda marksizm-leninizmin mövqelərinin möhkəmləndirilməsi işinə köməklik göstərirdi. Bu baxımdan uzun müddət fəaliyyət göstərən Qırmızı professura institutları sisteminin yaradılması xüsusi olaraq qeyd edilməlidir. Məzunlar sırasında azərbaycanlılar da var idi. Şübhəsiz, Azərbaycanlı marksist-filosofların yaradıcılığına bu institutun fəaliyyəti də mühüm təsir göstərmişdir.

III fəsil **“40-50-ci illərdə Azərbaycan fəlsəfəsinin inkişafı: başlıca meyillər və istiqamətlər”** adlanır. Bu fəslin ilk **“Heydər Hüseynov fenomeni və fəlsəfə tarixşünaslığında yeni mərhələdir”** adlı altfəslində göstərilir ki, peşəkar

filosoflar sırasında ilk növbədə Heydər Hüseynovun adı çəkilməli, onun həyatı və yaradıcılığı xüsusi tədqiqat obyekti olmalıdır. H.Hüseynovun fəaliyyət sahələri çox geniş olmuşdur. İlk növbədə onun icimai-siyasi həyatla, tarixlə, mənəvi sahə ilə bağlı tədqiqatları qeyd edilməlidir. H.Hüseynov tədqiqat obyekti kimi aktual mövzular seçir, işini vicdanla, böyük məsuliyyət hissi ilə yerinə yetirirdi.

Bunu onun yazdığı əsərlər, əməli fəaliyyəti aydın sübut edirdi. H.Hüseynov Ü.Hacıbəyov, N.Gəncəvi, M.F.Axundov, Mirzə Şəfi Vazeh, H.B. Zərdabi, A.A. Bakıxanov, digər görkəmli şəxsiyyətlər və dahi mütəfəkkirlər barədə geniş tədqiqatlar aparmış, əsərlər yazmışdır. H.Hüseynov özünün fundamental əsərlərindən biri sayılan "XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən" monoqrafiyasında "Qafqaz evi" ideyasını həm regionun sosial-siyasi inkişafı baxımından, həm də mədəni-tarixi, dini, mənəvi, etik-əxlaqi birlik olması baxımından fundamental səviyyədə ümumiləşdirib əsaslandırmağı bacarmışdır H.Hüseynovun fəlsəfə tarixi sahəsindəki tədqiqatları zahirən marksizm çərçivəsində qalsa da, öz məzmununa və mahiyyətinə görə novatorçu xarakter daşıyırdı.

H.Hüseynovun xidmətlərindən biri də ondan ibarətdir ki, o, marksist fəlsəfəni dərindən öyrənmiş, ona öz münasibətini bildirmişdir. Bu halda o, bütövlükdə öz tədqiqat əsərlərində prinsipial mövqe, obyektiv yanaşma və inandırıcı məntiqi təfəkkürünü ifadə etməyi bacarır. Bu və digər əsərlərindən gördündüyü kimi, H.Hüseynov fitri yaradıcılıq qabiliyyətinə malik bir şəxsiyyət olmuş, öz parlaq zəkası ilə Azərbaycan fəlsəfə tarixinə yeni bir səhifə yazmışdır.

H.Hüseynovun daha bir yaradıcılıq uğuru hesab edilə biləcək əsəri "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" monoqrafiyasıdır. Bu kitabın geniş girişindən belə bir qənaətə gəlmək olar ki, müəllif nə dərəcədə geniş tarixi-fəlsəfi, mənəvi bazada öz tədqiqatını aparmaq istəyir. O,

Azərbaycanın çoxəsrlik tarixini, mədəniyyətini mürəkkəb taleyini böyük sevgi ilə, bütün təfərrüatı ilə açıqlamağa çalışmışdır.

H.Hüseynov Azərbaycan fəlsəfə tarixində özünəməxsus bir iz qoyub getmişdir. Onun yaradıcılığı, rəhbər vəzifələrdə fəaliyyəti, şübhəsiz ki, ictimai elmlərin inkişafına, dolğunlaşmasına ciddi təsir göstərmişdir.

Üçüncü fəslin ikinci altfəslində "**Azərbaycan fəlsəfə tarixinə peşəkar filosofların töhfəsi**" problemi araşdırılır.

Azərbaycanda XX əsrin 20-50-ci illərində fəlsəfi - tarixi araşdırmaların təhlili, onun nəzəri-metodoloji əsaslarının axtarışı göstərir ki, burada uğurlarla yanaşı, məlum dövrlə şərtlənən bir sıra çatışmayan cəhətlər də olmuşdur. Bu sahədə öz fikrini bildirməyə çalışan, Azərbaycan fəlsəfə tarixinə ümumi nəzər salmaq təşəbbüsündə olan tədqiqatçılar sırasında Ziyəddin Bahadur oğlu Göyüşovun araşdırmaları xüsusi qeyd edilməlidir.

Tədqiq edilən dövrün çox mühüm hesab etdiyimiz əsərlərindən biri Z.B.Göyüşovun "Sovet Azərbaycanında fəlsəfi fikir: qısa oçerk" əsəridir. Burada sistemli şəkildə 1920 – 1975 – ci illərdə, mərhələ - mərhələ məhz Sovetlər dövrünə aid olan proseslər izlənilib, onlara qiymət verilmişdir.

Qeyd etmək lazımdır ki, Z.Göyüşovun elmi yaradıcılığı bütün müsbət keyfiyyətləri ilə yanaşı müəyyən mənada dövrün təsirinə məruz qalmışdır: o, öz əsərlərində müəyyən səviyyədə sovet ideologiyasının, marksizm ideyalarının tələblərinə əməl etməli olmuşdur.

III fəslin sonuncu altfəsli "**40-50-ci illərdə Azərbaycanda fəlsəfənin və digər sosial-humanitar elmlərin qarşılıqlı əlaqəsi**" adlanır. Göstərilir ki, bədii ədəbiyyat sahəsində ictimai şüura fəal təsir göstərmiş, xalqın bədii təfəkküründə, dünyanın bədii obrazlar vasitəsilə dərk edilməsində böyük xidmətləri olmuş C.Cabbarlı, M.Müşfiq, S.Vurğun, A.İsgəndərov, M.Şəhriyar və İ.Əfəndiyevin fəaliyyəti də

nəzərdən keçirilməlidir. Bu görkəmli şəxsiyyətlər öz yaradıcı fəaliyyəti ilə xalqımızı mənəvi mədəniyyətində dərin iz qoymuş, milli təfəkkürün formalaşmasında, dünyanın xeyir və şər, gözəllik və eybəcərlik prizmasından yeni müstəvidə əks olunmasında müstəsna rol oynamışlar.

Mənəvi həyatın eybəcərliklərini ifşa edən, ən ziddiyyətli və kəskin vəziyyətləri cəsarətlə açıqlayan bədii söz ustalarından biri də C.Cabbarlı olmuşdur. O, öz əsərlərində zəmanəsinin ruhunu, tələbatlarını duyaraq bunların bədii formada ifadəsini vermişdir.

Tədqiq olunan dövrün daha bir görkəmli nümayəndəsi, ictimai xadim və yazıçı Nəriman Nərimanov (1870-1925) olmuşdur. Böyük zəka sahibi, fəal, qaynar təbiətə malik olan N.Nərimanov ictimai fəaliyyətlə yanaşı həm də bədii yaradıcılıqda özünü sınamışdır. Bu əsərlərdə qəhrəmanların mənəvi aləmi, onların arasında formalaşan sosial-psixoloji münasibətlər önə çəkilir, onlara münasibət bildirilirdi.

Milli oyanışa çağırışlar ilk növbədə onun publisist əsərlərində səslənirdi.

Mühüm dövrün görkəmli şəxsiyyətlərindən biri, estetik fikrin zənginləşdirilməsində ciddi xidmətləri olan, burada özünəməxsus dəyərlər sistemini bərqərar etməyə çalışan Hüseyn Cavid istər publisistika, istərsə də bədii nəsr və şeir sahələrində insan mənəviyyatının ən dərin qatlarına nüfuz edərək, burada ümumbəşəri, humanist məzmun axtarırdı.

Müharibə Azərbaycanın bütün həyat fəaliyyəti sahələrinə, o cümlədən elmin inkişafına mühüm təsir göstərmişdir. Belə şəraitdə SSRİ-nin mövqeləri möhkəmləndi, iqtisadi, sosial-siyasi və mədəni inkişaf üçün yeni imkanlar yarandı. Azərbaycan SSR Elmlər Akademiyası da bu isə öz töhfəsini verməyə çalışırdı.

Mənəvi mədəniyyətin inkişaf istiqamətlərini təyin edən istiqamətlərdən biri də ədəbiyyat sahəsində aparılan tədqiqatlar olmuşdur. Bütün qeyd edilən proseslər fəlsəfi düşüncəyə,

insanların dünyagörüşünə təsir edərək, fəlsəfənin bir elm və tədris fənni kimi inkişafına səbəb olmuşdur.

İnkişaf, yeniləşmə meyillərin güclənməsində Azərbaycanın vətənpərvər, maarifçi qüvvələrinin rolu olduqca böyük idi. Onlar mütərəqqi ideyaların ictimai şüurda möhkəmlənməsinə çalışırdılar. Sosial-siyasi, iqtisadi və mədəni-intellektual sahələrdə baş verən dəyişikliklər yeni tələbatların formalaşmasına, insanların şüurunda yeni xüsusiyyətlərin qərarlaşmasına səbəb olmuşdur.

Dissertasiyanın **nəticə** hissəsində yekun qənaətlər verilir.

Göstərilir ki, XX əsrin 20-50-ci illərində Azərbaycan xalqının sosial-siyasi və fəlsəfi fikrində əsas yeri marksizm-leninizm ideyaları tuturdu. Bu ideyaların yayılmasında Azərbaycan marksistlərinin fəlsəfənin bütün sahələrinə göstərdiyi təsir çox böyükdür. Onlar bu mövqedən çıxış edərək idealizmə və aqnostisizmə qarşı mübarizə aparırdılar.

Dissertasiyada əhatə olunan dövr, yəni XX əsrin 20-50-ci illəri Azərbaycan üçün çox əlamətdar olmuşdur. Bu dövrün əsas xüsusiyyəti sosial həyatın sosializmə aid edilən prinsiplər əsasında yenidən qurulmasıdır. Köhnə sosial-siyasi quruluşu (çar idarəçilik üsulunu) əvəz edən Azərbaycan Cumhuriyyətinin (23 ay) Soverlər sistemi ilə əvəz olunmasıölkə həyatı üçün ciddi çətinliklər doğursa da, fəlsəfə elminin inkişafı yeni xüsusiyyətlər kəsb etməklə müəyyən nəaliyyətlər əldə etmişdir. Məlum dövrün tədqiqi aşağıdakı qənaətlər üçün əsas verir:

1. XX əsrin 20-50-ci illəri sosial-siyasi, iqtisadi və mənəvi sahələrində keçirilən islahatlar dövrü olmuşdur. Stalinizm rejmi şəraitində elmin, o cümlədən fəlsəfənin inkişafında bir sıra məhdudiyyətlər olmuşdur. Bunlar siyasi xarakter daşıyır və keçən əsrin 80-ci illərinin axırına qədər obyektiv və qərəssiz qiymətləndirilən heç bir siyasi və humanitar elm sahəsi olmamışdır. İstər ölkə tarixinin, istərsə də hər hansı bir elmin

tarixinin obyektiv tədqiqi yalnız SSRİ dağılandan sonra mümkün olmuşdur;

2. Tarix baxımından nisbətən qısa bir dövrü əhatə edən bu mərhələnin daxilində daha bir neçə mərhələni fərqləndirmək mümkündür. 20-30-cu illərdə və 40-50-ci illərdə marksizm-leninizm ideologiyası praktikada reallaşmaq baxımından yeni imkanlar əldə etmişdir. Fəlsəfə sahəsində bir çox tədqiqatçılar Stalinin yaratdığı totalitar rejimin güclü təsirindən hələ bir qədər uzaq idilər. Onların fəlsəfə və digər ictimai, humanitar elm sahələrində araşdırdıqları məsələlər daha çox ümumdünya fəlsəfəsi tarixi prizmasından nəzərdən keçirilir, onlara münaisbət bildirilirdi. Lakin tədricən azad fikir, rəy müxtəlifliyi daha qəti və sərt şəkildə təqib olunmağa başlandı. Nəticədə fəlsəfə sahəsinə aid elmi ədəbiyyat, fəlsəfi ideyalar üzərində qurulan konsepsiyalar daha sərt şəkildə "vacib prinsiplər" üzərində qurulurdu. Buna baxmayaraq, vicdanın və zəkanın səsini eşidən, öz mövqeyini həqiqətlə bağlayan tədqiqatçı – alimlər də az olmamışdır. Siyasi repressiyalara baxmayaraq, fəlsəfə elmi yaşayıb inkişaf etmişdir, lakin onun təmsilçilərinin bəziləri həbsxanaya düşmüş, bəziləri ilə ömrünü əmək düşərgələrində keçirməli olmuşlar. İnanilmaz bir faktdır ki, belə bir şəraitdə, ekstermal mühitdə insan iradəsi, onun mətinliyi belə bir yüksəkliyə ucala bilərmiş. Belə şəraitdə fəlsəfənin bir elm olaraq yaşayıb zənginləşə bilməsi inanılmaz bir faktdır.

3. "Dəmir sədd" mühiti olmasına baxmayaraq, dünya elminin, mexanikanın, iqtisadiyyatın və s. sürətli inkişafı bizim elmi ictimaiyyətin fəaliyyətinə müsbət təsir göstərir, burada obyektivlik, reallıq prinsiplərinə əməl olunmasına müəyyən şərait yaradırdı. Fəlsəfi materializm ənənəsi sovet dövründə dialektik və tarixi materializm kimi inkişaf etmiş, bu sahədə aparılan tədqiqatların müəyyən qismi (xüsusilə dialektik materializm sahəsində) dünya elmi ictimaiyyəti tərəfindən də rəğbətlə qarşılanmışdır. Azərbaycan da bu proseslərdən

kənarda qalmamışdır. Zaman keçdikcə burada daha intellektual və həqiqətə daha yaxın ideyalar və konsepsiyalar işlənib hazırlanmış və tədricən geniş yayılmışdır.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin aşağıdakı elmi əsərlərində əksini tapmışdır:**

1. Проблемы развития философского самосознание в культуре Азербайджана как составная часть Евразийства // – Пенза-Баку: Феноменцивилизации: сущность, типы, динамика. Материалы международной научно-практической конференции, 5-6 апреля 2011 г. –с.174-176.
2. 50-ci illərdə Azərbaycanda incəsənət sahəsində fəlsəfi fikrin inkişafı // – Пенза-Баку: Многополярный мир: предпосылки, проблемы и перспективы становления Международной научно-практической конференции, 20-21 мая 2011 г. – с.48-49.
3. XX əsr Azərbaycan ədəbiyyatında fəlsəfi ideyalar // – Bakı: Doktorantların və gənc tədqiqatçıların XV Respublika elmi konfransının materialları, II cild 2011. – s.34-35.
4. Ziyəddin Göyüşov 20-50-ci illər Azərbaycan fəlsəfi fikrinin tədqiqatçısı kimi // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, İctimai elmlər seriyası, – 2012. № 1(18), – s.71-74.
5. XX əsrin 20-50-ci illərində Azərbaycan mənəvi mədəniyyətinin fəlsəfi ideyaları // – Bakı: Bakı Dövlət Universiteti, İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi, – 2012. № 17, – s.187-194.
6. Проблемы этики и психологии в философской мысли первой половины XX века (по материалам истории философии Азербайджана) // – Тамбов: Исторические, философские, политические и юридические науки, культурология и

искусствоведение. Вопросы теории и практики – 2012. № 2(16), часть 1, – с. 133-136.
7. XX əsrin 20-50-ci illərində Azərbaycan fəlsəfəsinin inkişaf xüsusiyyətləri // – Bakı: Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransının materialları, I cild, 2013. – s. 267-268
8. Müasir dövrdə Azərbaycanda fəlsəfi tarixi tədqiqatlar // – Bakı: Strateji təhlil. Azərbaycan Respublikasının daxili və xarici siyasətinə, beynəlxalq münasibətlərə dair analitik jurnal, – 2014. № 2 (9), – s. 243-252.
9. Ü.Hacıbəyovun yaradıcılığında fəlsəfi ideyalar və müasirlik // – Bakı: Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransının materialları, I cild, 2016. – s.468-469
10. Fəlsəfə tarixinin formalaşması prosesinin əsas xüsusiyyətləri // – Bakı: AMEA: Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Elmi əsərlər, – 2016. № 1(26), – s. 125-132.
11. Преподавание философских дисциплин в современных вузах в рамках болонского процесса // – Одесса: Актуальные проблемы философии и социологии, – 2017. № 20, – с.75-77.
12. XX əsrin 20-50-ci illərində mənəvi mühit // – Bakı: Heydər Hüseynovun elmi-nəzəri irsi və müasir fəlsəfənin aktual problemləri. Respublika elmi-praktik konfransının materialları, 3 may 2018-ci il. – s.52-56.
13. Социально-теоретические основы Азербайджанской философии в советскийпериод // – Bakı: Metafizika, 2019. № 2 – s.95-114.
14. Cultural aesthetic trends in the development of philosophy in the 40-50s in Azerbaijan // – Молдова: Хуманитарни Балкански изследова-ния Кищинев, 2020. Том 4, №1(7), – с.81-84.

Dissertasiyanın müdafiəsi 31 01 2022-ci il tarixində saat 11:00 Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.33 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143. Bakı şəhəri, Hüseyn Cavid prospekti 115, Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutu, IX mərtəbə, konfrans zalı

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 27 12 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.12.2021

Kağızın formatı: A5

Həcm: 39284

Tiraj: 100